# Türk liderlərinin Naxçıvandan başlanan yolu Bakı Zirvəsinə çatdı

**On il qabaq – 2009-cu il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəvəti ilə qədim türk diyarı olan Naxçıvan şəhərinə gəlmiş Türkiyə, Qazaxıstan və Qırğızıstanın dövlət başçıları bir sıra mühüm məsələləri müzakirə etməli idilər və etdilər. Məhz həmin görüş çərçivəsində aparılan müzakirələr zamanı Nursultan Nazarbayev təklif irəli sürdü ki, bu müzakirələr Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü adı ilə mütəmadi olaraq keçirilsin. Tərəflər razılaşdılar. Bununla da Prezident İlham Əliyevin müdrikcəsinə təşəbbüs göstərərək türk liderlərini öz "Ata ocağı"na dəvət etməsi möhtəşəm bir əməkdaşlıq formatının təməlini qoymuş oldu.**

***Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır.***

***Azərbaycan Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Zirvə görüşündəki çıxışından***

**Qırğızıstan, Çolpon-Ata şəhəri**
**3 sentyabr 2018-ci il**





Tarixçilər yazırlar ki, Naxçıvan sammiti türk məkanında inteqrasiyanın formalaşdırılmasının əsas mərhələlərindən birinə çevrildi. Belə ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsas fəaliyyət məqsədləri və vəzifələri də məhz Naxçıvan Sazişi ilə müəyyən edilmişdi. Şura təsis olunduqdan sonra zirvə görüşləri "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) Zirvə görüşləri" adı altında Almatı, Bişkek, Nur-Sultan, Bodrum, Qəbələ və Çolpon–Ata şəhərlərində təşkil edilib.

Keçən 10 il sübut etdi ki, belə bir sazişin imzalanmasına, doğrudan da, böyük ehtiyac vardı. Bu 10 il ərzində türkdilli dövlətlər arasında əməkdaşlığın müxtəlif formaları inkişaf etdirilib. Onlardan biri də 2008-ci ildən fəaliyyət göstərən Türkdilli Dövlətlərin Parlament Assambleyasıdır. Ötən dövrdə mədəniyyət, incəsənət, iqtisadiyyat, ticari əlaqələr və digər sahələrdə əməkdaşlığımız inkişaf etdi və təbii ki, bu işlər bundan sonra daha da uğurla gedəcəkdir.

Çünki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Şərq və Qərb sivilizasiyaları arasında mənəvi körpü rolunu oynamış türkdilli xalqlar tarix səhnəsində yenidən mütəşəkkil qüvvə kimi çıxış etməyə başlamışlar. Türkdilli xalqların inteqrasiyası yolunda ümummilli liderimiz Heydər Əliyevin müdrik təşəbbüsü hazırda möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Əlbəttə, bu şuranın 10 illiyi bizim üçün əlamətdar hadisədir. Amma TDƏŞ üçün başqa bir əlamətdar hadisə ötən il baş vermişdir. Belə ki, Budapeştdə təşkilatın nümayəndəliyi təsis edilmişdir. Bir il öncə Macarıstan bu təşkilata müşahidəçi statusu ilə qoşulmuşdur. Nümayəndəliyin yaradılması bu təşkilatın Avropaya da genişlənməsi baxımından mühüm hadisədir. Türkdilli xalqlar arasında birliyin möhkəmləndirilməsi baxımından bu şura ilə yanaşı, Türksoy Beynəlxalq Akademiyası və Türk Mədəniyyəti və İrsi Fondu da yaxından iştirak edir.

Təbii ki, bu şurada tərəflərin qəbul etdiyi bütün qərarlar ədalətli və hamı üçün sərfəli olur. Ancaq bizim fikrimizcə, qəbul edilmiş ən ədalətli qərar şuranın 10 illiyinə həsr edilmiş zirvə görüşünün Bakıda keçirilməsidir. Bu zirvəni daha əlamətdar edən məqamlar isə qardaş Özbəkistanın da artıq sıramızda olması və türk dünyası ilə əməkdaşlığa böyük maraq göstərən Macarıstanın Bakı zirvəsində ali səviyyədə iştirak etməsidir.

Prezident İlham Əliyevin oktyabrın 14-də TDƏŞ-in növbəti Zirvə görüşündə iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət başçılarını qəbul etməsi zamanı xüsusilə vurğulanmalı bir neçə məqamın şahidi olduq və onları hörmətli oxuculara təqdim edirik.

Prezident İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşündə ölkələrimiz arasında dostluq, qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurla inkişaf etdiyi bildirildi. İqtisadi sahədə əməkdaşlığın genişlənməsindən məmnunluq ifadə olundu. Bu baxımdan sərmayə qoyuluşu, ölkələrimizin həyata keçirdiyi qlobal enerji layihələrinin rolu, həmçinin ötən il TANAP boru kəmərinin istifadəyə verilməsi, Bakı--Tbilisi--Qars dəmir yolu xəttinin fəaliyyəti vurğulandı.

Eləcə də, müdafiə sənayesi, təhsil, turizm, mədəniyyət sahələrində əməkdaşlığın perspektivləri müzakirə olundu. Söhbət zamanı ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən VII Zirvə görüşünün ölkələrarası əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyi bildirildi.

Dövlət başçımız Qazaxıstan Respublikasının birinci Prezidenti –elbası, Türk Şurasının fəxri sədri Nursultan Nazarbayevlə görüşdə vurğuladı ki, münasibətlərimizin möhkəmləndirilməsi bu müdrik siyasətçinin verdiyi böyük töhfəni Azərbaycanda çox yüksək qiymətləndirirlər: "Siz Heydər Əliyevlə birgə münasibətlərimizin qurulmasının təməlində dayanmısınız. Həmçinin mən Prezident vəzifəsini icra etməyə yenicə başlayandan Sizinlə ünsiyyət təcrübəsi mənim üçün çox dəyərli olub. Siz həmişə mənə dəstək göstərmisiniz və aramızda yaxın, deyərdim ki, doğma münasibətlər qurulub. Türkdilli ölkələrin həmrəyliyinin möhkəmləndirilməsi işinə töhfəniz də çox böyükdür. Türk Şurasının yubiley Sammitinin Bakıda keçirilməsindən çox məmnunuq. Siz türk dünyası birliyinin möhkəmləndirilməsi işinə yönəlmiş bir çox təşəbbüslərin və addımların təməlində dayanmısınız".

Cənab Nursultan Nazarbayev isə həmişə olduğu kimi, yenə də Azərbaycanın on illərdən bəri öz həllini tapmayan problemindən danışdı: " Sizin Qarabağla, Ermənistanla münasibətlərlə bağlı çətin məsələləriniz az olmayıb. Ümumiyyətlə, Azərbaycanın coğrafi mövqeyi hamı üçün maraqlıdır. Lakin qeyd etməliyəm ki, mən qiymət verməyə çalışmıram, amma həyat, siyasi və yaş təcrübəmdən çıxış edərək deməliyəm ki, Azərbaycanda hər şey öz axarında gedir. Başlıcası budur ki, xalq Sizin kursunuzu dəstəkləyir. Prezident və xalq yekdil olduqda xalqın öhdəsindən gələ bilməyəcəyi güc yoxdur. Buna görə Sizi təbrik edirəm … Sabah mənim 10 il əvvəl Naxçıvanda təklif etdiyim Türk Şurası toplanacaq. Sağ olun ki, mənə fəxri sədr olmağı təklif etdiniz".

Prezident İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevlə görüşü də maraqlı faktlarla zəngin idi. Dövlət başçımız hörmətli qonağın son zamanlar atdığı addımı yüksək qiymətləndirərək dedi ki, Siz çox müdrik qərar qəbul etmisiniz, Özbəkistan Türk Şurasına qoşulub: "Buna görə Sizə təşəkkür etmək və Türk Şurası üzvlərinin ümumi məmnunluğunu bildirmək istərdim. Biz bunu tarixi hadisə hesab edirik, bu, heç şübhəsiz, bizim həmrəyliyimizi, qarşılıqlı əlaqələrimizi, əməkdaşlığımızı möhkəmləndirəcək. Əminəm ki, sabahkı sammit şura üzvü olan bütün ölkələr arasında münasibətlərin daha da inkişafına və həmrəyliyə xidmət edəcək".

Bakıya gəlişini həqiqətən tarixi səfər adlandıran Özbəkistan Prezidenti xatırlatdı ki, ölkəsinin bu şuraya daxil olmaq barədə qərar qəbul etməsinin 3 ili tezliklə tamam olacaq: "Keçən il həmkarlarımın çoxu deyirdi: Gəlin, bu sənədi Çolpon-Atada imzalayaq, orada bayraq qaldıraq. Dedim ki, mənim öz fikrim var. Naxçıvan Sazişinin 10 illiyi tamam olacaq. Bu, tarixi hadisədir. Sizə çox təşəkkür edirəm ki, Siz də məni dəstəklədiniz. Azərbaycan ilə Özbəkistan arasında münasibətlərin qədim, möhkəm kökləri var. Bu əlaqələr uzun tarixə malikdir. Zənnimcə, bütün bunları dirçəltməyin vaxtı çatıb. Biz Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevlə həmişə fəxr edirik".

Prezident İlham Əliyevin Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov ilə görüşündə bizim üçün qardaş , yaxşı dost, tərəfdaş olan ölkə ilə əlaqələrimizin gələcəkdə daha da möhkəmlənəcəyinə əminlik ifadə edildi. Dövlət başçımız xatırlatdı ki, Azərbaycan TDƏŞ-ə sədrlik estafetini Qırğızıstandan qəbul edir: "Görülən belə yaxşı işlər üzərində biz gələn il ərzində ölkələrimiz arasında həmrəyliyi, qarşılıqlı dəstəyi möhkəmləndirməyə, həmçinin əməkdaşlığımızı real məzmunla zənginləşdirməyə səy göstərəcəyik".

Qırğızıstan Prezidenti bu yaxınlarda Hökumətlərarası Komissiyanın iclasının uğurla baş tutduğunu xüsusilə qeyd etdi və əminliyini dilə gətirdi ki, Bakı Zirvəsi bizim ikitərəfli münasibətlərimizə, xüsusilə ticari-iqtisadi sahədə münasibətlərimizə yeni impuls verəcək: "Biz həmişə münasibətlərimizi dəyərləndirir və qiymətləndiririk. Həmişə münasibətlərimizin inamla, fəal və qarşılıqlı maraqlar əsasında inkişaf etməsinə çalışırıq".

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 14-də Macarıstanın Baş Naziri Viktor Orbanla da görüşdü.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi üçün Macarıstanın göstərdiyi dəstək yüksək qiymətləndirildi, iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı. Qeyd edildi ki, ölkələrimiz arasında münasibətlər çox uğurla inkişaf edir. Dövlət başçımız dedi: "Sevindirici haldır ki, Macarıstan və Azərbaycan arasında münasibətlər indi çox yüksək səviyyədədir. Əminəm ki, bu səfərdən sonra biz tərəfdaşlığımıza yeni təkan verəcəyik".

Macarıstanın Baş Naziri on il bundan əvvəl ölkəsinin o qədər də yaxşı iqtisadi durumda olmadığı bir vaxtda Azərbaycanın yardım etdiyini və bütün mənalarda göstərdiyimiz dəstəyi xatırlatdı: "Biz bunu yüksək qiymətləndiririk. Diplomatik əməkdaşlığımız çox yaxşıdır, biz bunu belə söyləyə bilərik. İndi isə hesab edirəm, növbəti mərhələ ondan ibarətdir ki, biz iki ölkə arasında olan iqtisadi əməkdaşlığı daha da artırmalıyıq".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***